# Xalqın ruhunu oxşayan nəğmələr

## *Emin Sabitoğlunun milli musiqimizdə silinməz izi*

**Azərbaycan xalqı bu gün də Emin Sabitoğlu haqqında böyük sevgi və ehtiramla danışır. Onu Azərbaycanın dahi sənətkarı adlandırır, yaradıcılığını gələcək nəsillərə çatdırmağı özlərinə borc bilirlər. Onun bəstələri insanların ruhuna, xatirələrinə toxunur və dinləyiciyə zövq bağışlayır. Sənətkarın əsərlərini dinləyənlər bu musiqilərlə vətənə bağlılıq, qürur hissi duyurlar. Onun yaradıcılığını Azərbaycanın musiqi irsinin bir parçası kimi qəbul edir və onu həmişə minnətdarlıqla xatırlayırlar.**





Emin Sabitoğlu 2 noyabr 1937-ci ildə Bakı şəhərində yazıçı Sabit Rəhmanın ailəsində dünyaya gəlib. Azərbaycan musiqisində dəyərli əsərləri ilə dərin iz qoymuş sənətkar musiqi təhsilinə Qara Qarayevin sinfində başlayıb. Emin Sabitoğlu öz fikirlərini ən yaxşı musiqi vasitəsilə ifadə edə bildiyi üçün bu sənəti seçib. O, hələ 7 yaşında ikən Bülbül adına orta ixtisas musiqi məktəbində professor Kövkəb Səfərəliyevanın fortepiano sinfinə qəbul olub və 13 yaşından etibarən Midhəd Əhmədovdan bəstəkarlıq dərsləri almağa başlayıb. Musiqiyə olan həvəsi və istedadı sayəsində VIII sinifdə oxuyarkən ilk musiqi əsərini bəstələyib. Bu erkən nailiyyətlər onun sonrakı uğurlu yaradıcılıq yolunun başlanğıcı olub. E.Sabitoğlu daha sonra Moskva Dövlət Konservatoriyasında Yuri Şoporinin bəstəkarlıq sinfində təhsil alıb. Bəstəkar yaradıcılığında klassik musiqi ilə milli motivləri uğurla sintez edib. Emin Sabitoğlu 1961-ci ildən etibarən "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru, Dövlət Filarmoniyasında bədii rəhbər və Bakı Musiqi Akademiyasında müəllim kimi çalışaraq gənc nəsil musiqiçilər yetişdirib.

İfaçı yaradıcılığı ərzində 600-dən çox mahnı, 9 musiqili komediya, 40-a yaxın film musiqisi bəstələyib. Hansı ki, bu musiqilər insanlar arasında hələ də çox populyardır və sevilir. Emin Sabitoğlu paytaxtda və regionlardakı teatr tamaşalarına musiqi bəstələyərək Azərbaycan səhnəsində də iz buraxıb. Bəstəkar rejissorlar H.Seyidbəyli, T.Tağızadə, A.Babayev, Ş.Mahmudbəyov, V.Mustafayev və C.Mirzəyev, eləcə də R.Ocaqov ilə əməkdaşlıq edərək milli kinomuzun və teatr səhnəmizin ən baxımlı film və tamaşalarına musiqisi bəzəyi verib. E.Sabitoğlu Musiqili Komediya Teatrı, Milli Dram Teatrı və Naxçıvan, Sumqayıt, Mingəçevir, Şəki və Lənkəran teatrlarının kollektivləri üçün M.F.Axundovun "Lənkəran xanının vəziri", Səməd Vurğunun "Fərhad və Şirin", İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər", Bəxtiyar Vahabzadənin "Yağışdan sonra", Anarın "Təhminə və Zaur", "Şəhərin yay günləri" və "Adamın adamı" kimi bir sıra tamaşalara musiqi bəstələyib. Bu tamaşalar hələ də tamaşaçıların yaddaşında yaşayır. Bu əsərlər milli dəyərləri, ənənələri və hissləri musiqi ilə ifadə edir. Sabitoğlunun teatr tamaşalarına yazdığı musiqilərin sayı o qədər çoxdur ki, hətta o özü də dəqiq sayını bilmirdi. Bu geniş yaradıcılıq spektri onun sənətə olan dərin bağlılığını və zəngin yaradıcılıq potensialını bir daha göstərir.

Emin Sabitoğlu yaradıcılığında milli koloritin zənginliyini nümayiş etdirir. Onun əsərləri geniş dinləyici kütləsinə çatır, hər bir azərbaycanlı üçün doğma olub. Sabitoğlunun musiqisində insanın daxili aləmi, məhəbbət, vətən sevgisi və səmimi duyğular xüsusi yer tutur. Bu da onun əsərlərinin insanların qəlbinə toxunmasına səbəb olur. Emin Sabitoğlunun yaradıcılığının böyük hissəsini mahnı janrı təşkil edir. Bəstəkar sözlə nəğmənin ahəngdar vəhdətində mahnı janrının nadir incilərini meydana gətirərək "Çiçək yağışı", "Uzaq, yaşıl ada", "İnsaf da yaxşı şeydir", "Ah dedim", "Dərələr", "Ağ çiçək", "Sahildə", "Gilavar", "Mavidir", "Kəpənək", "Bakı sabahın xeyir!" və "Bəlkə də" kimi mahnıları ilə şöhrət qazanıb. Şövkət Ələkbərova, Mirzə Babayev, Xədicə Abbasova, Hüseynağa Hadıyev, Flora Kərimova və Yalçın Rzazadə kimi görkəmli müğənnilərin ifasında səslənən bu nəğmələr dinləyicilərin qəlbini ovsunlayır. Sabitoğlunun yaradıcılığında 600-dən çox mahnı yer alır, bunlardan 100-dən çoxu isə Azərbaycanın Xalq şairi Vaqif Səmədoğlunun sözlərinə yazılmışdır.



Bəstəkarın mahnıları kino ekranlarından da eşidilib. O, ümumilikdə 22 tammetrajlı bədii filmin, 40-a yaxın qısametrajlı mənzərə və sənədli filmin musiqi müəllifidir. 1970-ci ildən etibarən "Bizim Cəbiş müəllim" bədii filminə yazdığı musiqi ilə kinoda fəaliyyətini uğurla davam etdirib. Azərbaycan ekranının məşhur filmləri arasında "Gün keçdi", "Dədə Qorqud", "Ad günü", "İstintaq", "Bağlı qapı", "Qaçaq Nəbi", "Bəyin oğurlanması" və "Təhminə" kimi filmlərin titrlərində onun adı yer alır. E.Sabitoğlu yaxın dostu Rasim Ocaqovun çəkdiyi bütün filmlərin musiqi müəllifidir, bu da onun musiqisinin filmlərin baxımlılığında böyük rol oynadığını göstərir.

Emin Sabitoğlu musiqi sahəsindəki xidmətlərinə görə bir sıra yüksək mükafat və fəxri adlarla təltif edilmişdir. O, 1978-ci ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi", 2000-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülüb. Bəstəkar 1986-cı ildə "Atları yəhərləyin" filminə yazdığı musiqiyə görə Azərbaycan SSR Dövlət mükafatı alıb. Gənclərin inkişafına verdiyi töhfələr üçün 1968-ci ildə "Lenin komsomolu" mükafatı ilə də təltif edilib. 1997-ci ildə "Şöhrət" ordeni ilə mükafatlandırılan E.Sabitoğlu ölümündən sonra, 2001-ci ildə isə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatını qazanıb. Bu mükafatlar onun Azərbaycan mədəniyyətinə və musiqi dünyasına verdiyi dəyərli töhfələrin rəmzi kimi əhəmiyyət daşıyır.

Emin Sabitoğlu 18 noyabr 2000-ci ildə vəfat edib və onun yaradıcılığı, Azərbaycan mədəniyyətinə verdiyi töhfələr yüksək səviyyədə qiymətləndirilir. 5 avqust 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla bəstəkarın 80 illik yubileyi qeyd olunub, bu münasibətlə tədbirlər təşkil edilib. 2022-ci ildə isə onun 85 illik yubileyi Vyanada təşkil olunub. Bu beynəlxalq tədbir E.Sabitoğlunun Azərbaycan musiqisinin sərhədlərini aşan təsirini və yaradıcılığının dünya səhnəsindəki əhəmiyyətini bir daha nümayiş etdirib. Onun əsərləri Azərbaycan musiqisinin inkişafında mühüm rol oynayıb, bəstələdiyi mahnılar və musiqilər Azərbaycan xalqının mədəniyyətində əbədi yer tutub. Emin Sabitoğlu öz əsərləri ilə Azərbaycan musiqisinə yeni rəng qatıb və onun irsi gələcək nəsillər üçün də böyük bir ilham mənbəyidir.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**